# ODLAR YURDU UNİVERSİTETİ
# STRATEJİ İNKİŞAF PLANININ
# 2017-2022-Cİ İL ÜZRƏ MONİTORİNQ

# HESABATI

**Bakı – 2022**

# MÜNDƏRİCAT


**1. GİRİŞ .......... 3**

**2. STRATEJİ MƏQSƏDLƏR VƏ HƏDƏFLƏR ÜZRƏ İCRA VƏZİYYƏTİ .......... 4**

**3. ƏSAS ÇƏTİNLİKLƏR VƏ MƏHDUDİYYƏTLƏR .......... 21**

**4. GÖZLƏNİLƏN NƏTİCƏLƏR .......... 21**

**5. NƏTİCƏ VƏ TƏKLİFLƏR .......... 22**

## 1. GİRİŞ

Universitetlərin uzunmüddətli və davamlı inkişafını təmin etmək məqsədilə strateji planlaşdırma vacib bir idarəetmə alətidir. Bu çərçivədə, Odlar Yurdu Universitetinin 2017-2022-ci illəri əhatə edən Strateji İnkişaf Planını qəbul edərək təhsil, elm, idarəetmə və sosial sahələrdə mühüm hədəflər müəyyən etmişdir. Sözügedən plan universitetin missiyasına, vizyonuna və əsas dəyərlərinə əsaslanaraq, onun milli və beynəlxalq səviyyədə rəqabətqabiliyyətliliyini artırmaq məqsədi daşıyır.

Hazırkı monitorinq hesabatı 2017–2022-ci illər üzrə Strateji İnkişaf Planının icrasının ümumi qiymətləndirilməsini təqdim edir. Hesabatda plan çərçivəsində müəyyən edilmiş strateji hədəflərə və fəaliyyət istiqamətlərinə uyğun olaraq görülmüş işlər təhlil edilir, əldə olunan nəticələr dəyərləndirilir və qarşıya çıxan çətinliklər araşdırılır. Bununla yanaşı, hesabat universitetin gələcək inkişaf mərhələləri üçün əsas tövsiyələri və təkmilləşdirmə imkanlarını da ortaya qoymağı hədəfləyir.

Bu monitorinq prosesi, universitetin idarəetmə sistemində şəffaflıq və hesabatlılığı gücləndirmək, eləcə də növbəti dövrlər üçün daha effektiv və məqsədyönlü planların hazırlanmasına töhfə vermək baxımından mühüm əhəmiyyət kəsb edir.

## 2. STRATEJİ MƏQSƏDLƏR VƏ HƏDƏFLƏR ÜZRƏ İCRA VƏZİYYƏTİ

**Strateji məqsəd 1. Daxili keyfiyyət təminatını təkmilləşdirmək**

***Hədəf 1.*** *Keyfiyyətli təhsilə yönələn sistemin inkişaf etdirilməsi;*

Bu hədəf çərçivəsində universitetin təhsil sisteminin struktur və məzmun baxımından təkmilləşdirilməsi üçün Odlar Yurdu Universitetinin rektoru tərəfindən onlarla əmr imzalanmışdır ki, bu da xeyli dərəcədə Odlar Yurdu Universitetinin təhsilə yönələn sisteminin inkişaf etdirilməsinin mütərəqqi mexanizmini formalaşdırmışdır. Əmrlərin məzmunu ilə Odlar Yurdu Universitetinin Strateji İnkişaf Planın 5 tədris ili üzrə monitorinq hesabatlarında tanış olmaq mümkündür.

***Hədəf 2.****Tədris keyfiyyətinin və mənimsəmə imkanlarının yüksəldilməsi*

2021-2022-ci tədris ilində mövcud tələbə sayı nəzərə alınmaqla internetə çıxışı olan kompüterlərin sayında baza ili ilə müqayisədə isə 35 faizlik artım müşahidə edilməkdədir.

**Qrafik 1.** 2017-2022-ci illər üzrə mövcud tələbə sayı nəzərə alınmaqla internetə çıxışı olan kompüterlərin sayı



Digər tərəfdən ötən tədris ili ilə müqayisədə 2021-2022-ci tədris ilində kompüterlə təchiz edilmiş laboratoriyaların sayında baza ili müqayisədə isə 2.3 dəfəlik artım müşahidə olunmuşdur.

**Qrafik 2.** 2017-2022-ci illər üzrə kompüterlə təchiz edilmiş laboratoriyaların sayı




***Hədəf 3.****OYU-da daha yüksək elmi dərəcəsi, biliyi, səriştəsi ilə fərqlənən alimlərin, pedaqoqların sayının baza ilinə nisbətdə 10 faiz artırılması;*

**Qrafik 3.** 2017-2022-ci illər üzrə elmi dərəcəsi olan tədqiqatçıların sayı



2021-2022-ci tədris ili üzrə elmi dərəcəsi olan tədqiqatçıların sayında baza ili olan 2017-2018-ci tədris ili ilə müqayisədə isə 68.6 faizlik artım müşahidə edilməkdədir.

Digər tərəfdən 2021-2022-ci tədris ili üzrə Odlar Yurdu Universitetində elmlər doktoru və professor dərəcəsinə malik olan müəllimlərin sayında baza ili olan 2017-2018-ci tədris ili ilə müqayisədə isə 14.3 faizlik artım müşahidə edilməkdədir.

**Qrafik 4.** 2017-2022-ci illər üzrə elmlər doktoru və professor dərəcəsinə malik olan müəllimlərin dinamikası




***Hədəf 4.*** *"universitet-məzun", "universitet–valideyn", "universitet-ictimaiyyət" sistemlərini qurmaq, universitetin saytının daha dolğun və çevik olmasını təmin etmək;*

Sözügedən hədəf üzrə Məzunlarla iş mərkəzinin mövcudluğu universitet-məzun əlaqələrinin qurulması üçün zəruridir. Hədəfin reallaşdırılması ilə bağlı olaraq universitetin saytının (oyu.edu.az) daha dolğun və çevik olması təmin edilmişdir. Eyni zamanda, bu hədəfin reallaşdırılması ilə bağlı olaraq Odlar Yurdu Universitetinin strukturunu təkmilləşdirmək və tanınmasını gücləndirmək məqsədi ilə Universitetdə yeni "İnformasiya və ictimayyətlə əlaqələr" şöbəsi yaradılmışdır **(Əmr 67/Ü, 15 fevral 2021).**

**Strateji məqsəd 2. Tədris prosesində interaktiv, yeni və daha müasir metodlardan istifadə etmək**

***Hədəf 1.*** *Yeni təhsil standartlarına cavab verən auditoriyaların təşkil edilməsi;*

Odlar Yurdu Universitetində baza ili olan 2017-2018-ci tədris ili ilə müqayisədə 2021-2022-ci tədris ili üzrə proyektor ilə təchiz edilmiş auditoriyaların sayında 4.2 dəfəlik artım müşahidə edilməkdədir.

Eyni zamanda interaktiv lövhə ilə təchiz edilmiş auditoriyaların sayında baza ili olan 2017-2018-ci tədris ili ilə müqayisədə isə 3 dəfəlik artım müşahidə edilmişdir.

**Qrafik 5.** 2017-2022-ci illər üzrə proyektor və interaktiv lövhə ilə təchiz edilmiş auditoriyaların dinamikası




***Hədəf 2.*** *Müəllim və tələbə heyyətinin müasir kompüter proqram-paketlərindən istifadə bacarıqlarının artırılması;*

Əmək bazarının tələblərinə cavab verən rəqabətqabilliyyətli kadrların yetişdirilməsi üçün sözügedən hədəfin reallaşdırılması zəruridir. Sözügedən tədris ili üzrə bu bacarıqların artırılmasına istiqamətlənən fəaliyyət qismən davam etmişdir.

***Hədəf* 3.** *İnnovativ və interaktiv təlim metodlarından istifadənin genişləndirilməsi;*

Müasir təlim metodlarından istifadə edilməsi mənimsəmə göstəricisinin yüksəldilməsi üçün önəmlidir. Burada ümumi metodlardan istifadə edilə yanaşı spesifik metodlardan da istifadə üçün müvafiq mexanizmlərin formalaşdırılması önəmlidir. Sözügedən hədəf üzrə fəaliyyət qismən davam etmişdir.

***Hədəf* 4.** *Tədris prosesinin İKT-dən istifadə ilə qurulması, tədris materiallarının elektron daşıyıcılarda işlənməsi və tətbiqi;*

Odlar Yurdu Universitetinin 2017-2022-ci illərini əhatə edən SİP-in II strateji məqsədinin I hədəfində tədris prosesində İKT-dən istifadə üçün infrastruktun 2021-2022-ci tədris ili üçün cari vəziyyəti göstərilmişdir. Proqram, sillabus, mühazirə materialları kimi tədris materiallarının elektron daşıyıcılarda işlənməsi prosesi tam şəkildə reallaşdırılmışdır.

***Hədəf* 5.** *Təhsil proqramlarının beynəlxalq akkreditasiya qurumlarının tələblərinə uyğunlaşdırılması;*

Müasir dövrdə ali təhsil müəssisələrinin qarşısında duran əsas çağırışlardan biri beynəlxalq rəqabətə davamlı olmaq, məzunlarını qlobal əmək bazarına uyğun hazırlamaq və akademik nüfuzunu artırmaqdır. Bu məqsədə çatmaq üçün təhsil proqramlarının beynəlxalq akkreditasiya qurumlarının tələblərinə uyğunlaşdırılması vacibdir. Bu hədəf üzrə fəaliyyət qismən davam etmişdir.

***Hədəf* 6.** *OYU-nun elektron kitabxanasının yaradılması;*

OYU-nun elektron kitabxanası yaradılması prosesi başa çatmışdır.

***Hədəf* 7.** *Təhsil Nazirliyindən qrif almış fənn proqramlarının sayının artırılması;*

Təhsil Nazirliyi tərəfindən fənn proqramlarına qrifin verilməsi həmin fənn proqramının standartlarının ölkənin təhsil standartları ilə uyğunlunu xarakterizə edir. Sözügedən istiqamətdə Odlar Yurdu Universitetinin kafedralarının fəaliyyətinin gücləndirilməsinə ehtiyac vardır. Bu istiqamətdə fəaliyyət davam etmişdir və müxtəlif proqramlar qrif almışdır.

***Hədəf* 8.** *Tələbə qəbulunun sayını baza ilinə nisbətdə 2 dəfəyə yaxın genişləndirmək;*

Odlar Yurdu Universitetində 2021-2022-ci tədris ili üzrə bakalavr səviyyəsinə qəbul olan tələbə sayında baza ili ilə müqayisədə isə 2.6 dəfəlik bir artım müşahidə edilməkdədir.

2021-2022-ci tədris ili üzrə bakalavr və magistratura pilləsi üzrə ümumi tələbə qəbulunun sayı baza ili olan 2017-2018-ci tədris ilinə nisbətdə 2.2 dəfə artmışdır.

**Qrafik 6.** 2017-2022-ci illər üzrə ümumi tələbə qəbulu




***Hədəf* 9.** *Tədrisi təklif olunan ixtisasların sayının baza ilinə nisbətdə artırılması*

Odlar Yurdu Universitetində tədrisi təklif olunan ixtisaslarının sayının baza ilinə nisbətdə artırılması əmək bazarının tələblərinə müvafiq olaraq dəyişməlidir. Baza ili olan 2017-2018-ci tədris ilində bakalavriat səviyyəsi üzrə

tədrisi təklif olunan ixtisasların sayı 17 idisə, 2021-2022-ci tədris ilində bakalavriat səviyyəsi üzrə tədrisi təklif olunan ixtisasların sayı 21 olaraq müəyyən edilmişdir. Sözügedən ixtisaslar aşağıdakılardır.

1. Məktəbəqədər təhsil
2. Təhsildə - sosial – psixoloji xidmət
3. Xarici dil müəllimliyi (ingilis dili)
4. Beynəlxalq münasibətlər
5. Filologiya
6. Psixologiya
7. Tərcümə (ingilis dili)
8. Dizayn (interyer; qrafik; modelyer)
9. Biznesin idarə edilməsi
10. Dövlət və bələdiyyə idarəetməsi
11. İqtisadiyyat
12. Maliyyə
13. Marketinq
14. Menecment
15. Mühasibat
16. Biologiya
17. Ekologiya
18. İnformasiya texnologiyaları
19. Kompüter mühəndisliyi
20. Sosial iş
21. Turizm işinin təşkili

2021-2022-ci tədris ili üzrə magistratura səviyyəsi üzrə “Ümumi psixologiya”, “Klinik psixologiya”, “Pedoqoji psixologiya”, “Dizayn və texniki estetika” və “Mikrobiologiya” kimi ixtisaslaşmaların tədrisi təklif edilmişdir. Baza ili olan 2017-2018-ci tədris ilində magistratura səviyyəsi üzrə tədrisi təklif olunan ixtisasların sayı 14 idisə, 2021-2022-ci tədris ilində magistratura

səviyyəsi üzrə tədrisi təklif olunan ixtisasların sayı 17 olaraq müəyyən edilmişdir. Sözügedən ixtisaslaşmalar aşağıdakılardır.

1. Xarici dilin tədrisi metodikası və metodologiyası (ingilis dili üzrə)
2. Azərbaycan ədəbiyyatı
3. Azərbaycan dili
4. Beynəlxalq iqtisadi münasibətlər
5. Beynəlxalq maliyyə və valyuta-kredit münasibətləri
6. Bank işi
7. Maliyyə nəzarəti və audit
8. Menecment (təhsil, turizm, səhiyyə, ümumi menecment)
9. Marketinq (təhsil, turizm, səhiyyə)
10. Biznesin təşkili və idarə edilməsi
11. Kompüter mühəndisliyi
12. İdarəetmədə informasiya sistemləri
13. Ümumi psixologiya
14. Pedaqoji psixologiya
15. Klinik psixologiya
16. Dizayn və texniki estetika
17. Mikrobiologiya

**Strateji məqsəd 3. Universitetin monitorinq, təhlil, qiymətləndirmə sisteminin təkmilləşdirilməsi**

***Hədəf 1.****Təhsil keyfiyyətinin artırılması üçün başlıca meyarlarının müəyyən edilməsi;*

Odlar Yurdu Universitetində təhsil keyfiyyətin artırılması üçün başlıca meyarların müəyyən edilməsi çərçivəsində “Odlar Yurdu Universitetinin Keyfiyyət Təminatı Siyasəti” adlı sənəd tərtib edilmiş və Odlar Yurdu Universitetinin rektoru tərəfindn 30 aprel 2020-ci ildə təsdiq edilmişdir.

***Hədəf 2.****Tələbələrin imtahan-monitorinq nəticələrinin təhlili;*

Tələbələrin hər tədris ilinin sonunda imtahan-monitorinq nəticələrinin təhlili Birləşmiş Fakültələr Departamenti tərəfindən aparılmışdır. Keyfiyyətin Təminatı Departamenti prosesin ümumi gedişatına nəzarət etmişdir.

***Hədəf 3.*** *Monitorinq və nəzarət mexanizminin formalaşdırılması və tətbiq edilməsi;*

Monitorinq və nəzarət mexanizminin formalaşdırılması məqsədilə Universitetdə Keyfiyyətin Təminatı Departamenti fəaliyyət göstərməkdədir. Bu mərkəzin fəaliyyətinin başlıca istiqamətlərindən biri də məhz monitorinqlərin aparılmasıdır.

***Hədəf 4.*** *Monitorinq zamanı ortaya çıxan problemlərin aradan qaldırılması məqsədilə işlərin görülməsi;*

Keyfiyyətin Təminatı Departamenti tərəfindən aparılan monitorinqlər zamanı ortaya çıxan problemlərin aradan qaldırılması Universitetinin Elmi Şurasında müzakirə edilmişdir və bununla əlaqədar zəruri işlər görülmüşdür.

***Hədəf 5.*** *Sistemli şəkildə Universitetdə müxtəlif istiqamətlər üzrə mütəmadi monitorinqlərin aparılması;*

Sözügedən hədəf üzrə təhsilalanlar ilə məmnunluq sorğusu, akademik heyyətin qiymətləndirilməsi və tələbələrin fənnlər üzrə məmnunluğu kimi istiqamətlər üzrə monitorinq və sorğular aparılmışdır.

***Hədəf 6.*** *Tələbələrin sosial vəziyyətlərini müəyyən edən monitorinqlərin keçirilməsi və təhlili;*

Sözügedən hədəf üzrə fəaliyyət qismən reallaşdırılmışdır. Hədəfin tam icrası üçün bu fəaliyyət növbəti Strateji İnkişaf Planına həvalə edilməlidir.

***Hədəf 7.*** *Professor müəllim heyyətinin reytinqinin müəyyən edilməsi meyyarlarının hazırlanması və "keyfiyyət elçiləri"nin köməyi ilə monitorinqin aparılmasını təmin etmək;*

Professor müəllim heyyətinin reytinqinin müəyyən edilməsi meyyarlar hazırlanmışdır. "Keyfiyyət elçiləri"nin köməyi ilə monitorinqlər aparılmışdır.

***Hədəf 8.*** *Qiymətləndirmə sisteminin səmərəliliyini artırmaq, davamlılığını təmin etmək;*

Sözügedən hədəf üzrə fəaliyyət qismən reallaşdırılmışdır. Hədəfin tam icrası üçün bu fəaliyyət növbəti Strateji İnkişaf Planına həvalə edilməlidir.

***Hədəf 9.****Tələbə məmunluğunu əldə etmək naminə "şikayət və təkliflər" qutusu üsulundan istifadə etmək.*

Tələbə məmnuniyyətinin yüksəldilməsi istiqamətində "Şikayət və təkliflər" qutusu vasitəsilə geridönüş mexanizminin qurulması prosesinin intensivləşməsinə ehtiyac vardır. Hədəfin tam icrası üçün bu fəaliyyət növbəti Strateji İnkişaf Planına həvalə edilməlidir.

**Strateji məqsəd 4. Universitetin elmi-tədqiqat işinin inkişaf etdirilməsi**

***Hədəf 1.*** *Bir tərəfdən kafedranın elmi istiqamətləri ilə digər tərəfdən universitetlər, məktəblər və biznes subyektləri arasında sabit əməkdaşlıq əlaqələrinin formalaşdırılması;*

Kafedranın elmi fəaliyyət istiqamətləri ilə universitetlər, ümumtəhsil müəssisələri və biznes subyektləri arasında qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulması strateji dövr üçün nəzərdə tutulmuş əsas hədəflərdən biri olmuşdur. Sözügedən fəaliyyət əsasən icra edilmiş və aşağıdakı biznes subyektləri ilə əməkdaşlıq protokolları imzalanmışdır.

- 5 dekabr 2017-ci il - Oksigen Klinik Xəstəxanası
- 31 yanvar 2018-ci il - Ibeh International Bildung und Entwicklungshilfe

- 18 aprel 2018-ci il - Beynəlxalq Miqrasiya Təşkilatı
- 21 may 2018-ci il - Sefco Consulting Group
- 03 fevral 2020-ci il - Porline MMC

Xarici universitetlər isə əməkdaşlıq isə, V strateji məqsəddə öz əksini tapmışdır.

***Hədəf 2.*** *"Scopus" bazasında çapedilən məqalələrin illik sayının baza ilinə nisbətdə ən azı 2 dəfə artırılması;*

2021-ci il üzrə Scopus bazasında Odlar Yurdu Universitetinin əməkdaşlarının məqalələrinin sayında baza ilinə nisbətdə 75 faizlik artım müşahidə olunmuşdur. Scopus bazasında Odlar Yurdu Universitetinin əməkdaşlarının məqalələrinin sayı 7 olaraq müəyyən edilmişdir. 2022-ci ilin yanvar-iyun aylarında isə çap edilən məqalələrin sayı 8 olaraq müəyyən edilmişdir. Bununla da, 2021-2022-ci tədris ili üzrə Scopus bazasında çap edilən məqalə sayı 15 olaraq müəyyən edilmişdir ki, bu da baza ilinə nisbətdə 3.75 dəfəlik artım deməkdir.

**Qrafik 7.** 2017-2022-ci illər üzrə "Scopus" bazasında çapedilən məqalələrin sayı




Qeyd: 2017-2020-ci illər təqvim ili üzrə növbəti il isə tədris ili üzrə hesablanmışdır.

***Hədəf 3.*** *"Scopus" bazasındakı istinad indeksinin baza ilinə nisbətdə ən azı 10 dəfə artırılması;*

2021-ci il üzrə Scopus bazasında Odlar Yurdu Universitetinin istinad indeksi baza ilinə (2017) nisbətdə 28.5 dəfə artaraq, 57 olaraq müəyyən edilmişdir.[1]

**Qrafik 8.** 2017-2022-ci illər üzrə "Scopus" bazasında Odlar Yurdu Universitetinin istinad indeksi




***Hədəf 4.*** *"Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri" jurnalının elmi bazalara daxil edilməsini təşkil etmək;*

"Odlar Yurdu Universitetinin Elmi və Pedoqoji Xəbərləri" Jurnalı Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyanın tövsiyyə etdiyi nəşrlər siyahısındadır. Hədəfin tam icrası üçün bu fəaliyyət növbəti Strateji İnkişaf Planına həvalə edilməlidir.

[1] Qeyd: Scopus bazasında istinad indeksi cari ilin sonu üçün müəyyən edilmişdir. Bu səbəbdən hesabatdakı məlumatların doğruluğunu təmin etmək məqsədilə təqvim ilinin sonunda hesabata müvafiq düzəlişlər edilmişdir.

***Hədəf 5.*** *"Scopus" bazasına daxil olan beynəlxalq elmi konfranslarda OYU-nun*
*adından məqalələrin mövcud olmasını təmin etmək;*

Odlar Yurdu Universitetinin əməkdaşlarının hər il üzrə Scopus bazasına daxil olan beynəlxalq elmi konfranslarda məqalələrinin mövcud olması təmin edilmişdir.

**Qrafik 9.** 2017-2022-ci illər üzrə Odlar Yurdu Universitetinin əməkdaşlarının Scopus bazasına daxil olan beynəlxalq elmi konfranslardakı məqalə sayı




Qeyd: 2017-2020-ci illər təqvim ili üzrə növbəti il isə tədris ili üzrə hesablanmışdır.

***Hədəf 6.*** *Universitetin elmi-tədqiqat strategiyasının formalaşdırılması;*

Odlar Yurdu Universitetində 2017-2022-ci illəri əhatə edən elmi-tədqiqat strategiyası formalaşdırılmış və 01.02.2018-ci ildə təsdiq edilmişdir. Bu hədəf tam reallaşdırılmışdır.

***Hədəf 7.*** *Elmi-tədqiqat işlərinin nəticələrinin tədrisdə, magistr və doktorluq işlərində tətbiq edilməsi;*

Odlar Yurdu Universitetində elmi-tədqiqat işlərinin tədris, magistr və doktorluq işlərində tətbiq edilməsi ilə bağlı fəaliyyət reallaşdırılmışdır. Belə ki, magistr və doktorant tələbələrinin elmi əsərləri çap edilmiş və bu elmi əsərlərdən dissertasiyalarda istifadə edilmişdir.

***Hədəf 8.*** *Əqli mülkiyyətin qorunmasına yönəlmiş anti-plagiat sisteminin qurulması;*

Akademik etikanın əsasını təşkil edən istiqamətlərdən biri də əqli mülkiyyətin qorunmasıdır. Bu istiqamətdə reytinqli proqramların alınmasına ehtiyac vardır. Sözügedən istiqamət üzrə fəaliyyət qismən davam etmişdir. Hədəfin tam icrası üçün bu fəaliyyət növbəti Strateji İnkişaf Planına həvalə edilməlidir.

**Strateji məqsəd 5. Universitetin beynəlxalq əlaqələrini genişləndirmək**

***Hədəf 1.*** *Xaricdə fəaliyyət göstərən universitetlərlə yeni əlaqələrin qurulması;*

Xaricdə fəaliyyət göstərən universitetlərlə yeni əməkdaşlıq əlaqələrinin qurulması ali təhsil müəssisəsinin beynəlmiləlləşmə strategiyası çərçivəsində əsas hədəflərdən biri kimi müəyyən edilmişdi. 2017-2022-ci illər üzrə aşağıdakı universitetlər ilə əməkdaşlıq protokolları imzalanmışdır.

- Universiti Malaysia Perlis – 23.11.2017
- Kocaeli Universiteti – 23.05.2018
- Doğuş Universiteti – 16.05.2018
- Yaşar Universiteti – 21.01.2019
- University of Tehran Aras International Campus – 05.02.2019
- Ege Universiteti – 06.02.2019
- Aydın Adnan Menderes Universiteti – 07.02.2019
- Ege Universiteti – 25.03.2019
- Bayburt Universiteti – 05.2022

- Artvin Çoruh Universiteti – 03.06.2022

***Hədəf 2.*** *Universitetin müəllim və tələbələrinin beynəlxalq mübadilə proqramlarına cəlb edilməsini genişləndirmək;*

Universitetin müəllim və tələbələrinin beynəlxalq mübadilə proqramlarında iştirakının genişləndirilməsi Ali Təhsil Müəssisəsinin beynəlxalq əlaqələrinin gücləndirilməsi və akademik mobilliyin təşviqi baxımından strateji əhəmiyyət daşıyırdı. Odlar Yurdu Universitetində müəllimlərin Mevlana beynəlxalq mübadilə proqramına cəlb edilməsi prosesi üzrə fəaliyyətə başlanılaraq 07.03.2018, 29.05.2018, 05.06.2018, 21.06.2018, 28.06.2018, 13.09.2018 və 01.05.2019-cu illərdə əməkdaşlıq protokolları imzalanmışdır.

***Hədəf 3.*** *Xarici təşkilatlarla əməkdaşlıq edərək, təhsil və elm sahəsindəki proqramlarda, layihələrdə, konfranslarda, vebinarlarda, debatlarda OYU-nun əməkdaşlarının iştirakını təşkil etmək;*

Odlar Yurdu Universitetinin əməkdaşları 2021-2022-ci tədris ili ərzində aşağıdakı konfranslarda iştirak etmişlərdir.

- 15.02.2018 - Görkəmli Azərbaycan nasiri, böyük ədəbiyyatşünas alim və pedaqoq Mir Cəlal Paşayevin anadan olmasının 110 illiyi ilə əlaqədar olaraq Universitetdə elmi-praktik konfransın təşkili və keçirilməsi.
- 14.04.2018 - Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi və Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 - ci ildonümünə həsr olunmuş "Müasir dövrdə Heydər Əliyevin dövlətçilik modeli: realıqlar ve faktlar" mövzusunda beynəlxalq elmi-praktiki konfransın təşkili və keçirilməsi.
- 12.04.2019 - Ümummillilider Heydər Əliyevin anadan olmasının 96 - cı ildonümünə həsr olunmuş "Müasir təhsilin inkişafında

beynəlmiləlləşmənin rolu" mövzusunda beynəlxalq elmi-praktiki konfransın təşkili və keçirilməsi.

- 11th International Conference on Theory and Applications Soft Computing, Computing with Words and Perceptions and Artificial Intelligence, ICSCCW 2021
- International Conference on Intelligent and Fuzzy Systems, INFUS 2021

***Hədəf 4.*** *Əcnəbi tələbələrlə iş keyfiyyətinin daha da təkmilləşdirilməsi və qəbul sayının baza ilinə nisbətdə ən azı 50 faiz artırılması;*

Odlar Yurdu Universitetində 2021-2022-ci tədris ili üçün əcnəbi tələbələrin sayı 41 nəfər təşkil etmişdir ki, bu da baza ili ilə müqayiəsədə 64 faizlik artımdır.

**Qrafik 10.** 2017-2022-ci illər üzrə Odlar Yurdu Universitetində əcnəbi tələbələrin qəbulu




***Hədəf 5.*** *Tərəfdaş olduğumuz beynəlxalq səviyyəli qrant layihələrinin sayının artırılması;*

Tərəfdaş olduğumuz beynəlxalq səviyyəli qrant layihələrinin sayının artırılması qarşıya qoyulan əsas hədəflərdən biridir. Bu istiqamətdə atılan addımlardan biri kimi, universitetimizin əməkdaşları Erasmus+ proqramı

çərçivəsində həyata keçirilən və ali təhsil müəssisələrinin institusional inkişafını dəstəkləyən “Azərbaycan Rektorlar Konfransının yaradılması” adlı layihədə fəal iştirak etmişlər.

***Hədəf 6.*** *Beynəlmiləlləşmə siyasətinin formalaşdırılması*

Sözügedən siyasətin formalaşdırılmış və 01.02.2018-ci ildə təsdiq edilmişdir. Bu siyasət özündə Ali Təhsil Müəssisəsinin beynəlxalq tanıtımının başlıca istiqamətlərini ehtiva etməkdədir. Hədəf tam icra olunmuşdur.

## 3. ƏSAS ÇƏTİNLİKLƏR VƏ MƏHDUDİYYƏTLƏR

2017–2022-ci illəri əhatə edən Strateji İnkişaf Planının icrası zamanı bir sıra obyektiv və subyektiv çətinliklər müşahidə olunmuşdur ki, bu da müəyyən fəaliyyətlərin tam şəkildə və planlaşdırıldığı vaxtda həyata keçirilməsinə təsir etmişdir. Bu çətinliklər əsasən struktur və texniki xarakter daşımaqla yanaşı, qlobal miqyasda baş vermiş fövqəladə hallar, xüsusilə də Covid-19 pandemiyası ilə də bağlı olmuşdur. Covid-19 pandemiyası, xüsusilə 2020-2021-ci illərdə təhsil prosesinin təşkili, elmi-tədqiqat fəaliyyətlərinin davamlılığı və beynəlxalq əməkdaşlıqların həyata keçirilməsində nəzərəçarpacaq fasilələrə səbəb olmuşdur. Əyani təhsildən onlayn tədrisə keçid, texnoloji uyğunlaşma prosesində yaranan çətinliklər və tələbələrin distant təhsilə adaptasiyası bəzi strateji hədəflərin icra tempini ləngitmişdir. Həmçinin beynəlxalq layihələrdə və akademik mobillik proqramlarında gözlənilən göstəricilərə tam nail olmaq mümkün olmamışdır.

Bu məhdudiyyətlərə baxmayaraq, universitet planın əsas prioritetlərini qoruyub saxlamış, dəyişən şəraitə uyğun olaraq çevik yanaşmalar tətbiq etmiş və müəyyən olunmuş məqsədlərin əksəriyyətinə nail olmaq istiqamətində davamlı fəaliyyət göstərmişdir..

## 4. GÖZLƏNİLƏN NƏTİCƏLƏR

2017-2022-ci illəri əhatə edən SİP-in yerinə yetirilməsi aşağıdakı nəticələrin əldə edilməsinə imkan yaradacaq:

- Odlar Yurdu Universitetinin Azərbaycanın aparıcı universitetlərindən biri kimi mövqeyinin möhkəmlənməsinə;
- OYU-nun xarici elm və təhsil məkanına inteqrasiyasının sürətlənməsinə;
- Beynəlxalq təsnifata uyğun istiqamət və ixtisaslar üzrə müasir tələblər səviyyəsində pedaqoji kadr hazırlığının aparılmasına;
- OYU-nun maddi-texniki və tədris-metodiki təminatının müasirləşdirilməsinə;
- Əcnəbi tələbələrin sayının artmasına;

- Universitetdə kadr hazırlığının cəmiyyətin əmək bazarının tələbatlarına uyğunlaşdırılmasına;
- Beynəlxalq tələblərə cavab verəcək keyfiyyətin təminatı və idarəolunması sisteminin yaradılmasına;
- Müəllim və tələbə mübadiləsi sahəsində imkanların artırılmasına;
- Beynəlxalq səviyyədə fundamental və tətbiqi elmi-tədqiqatların aparılmasına.

## 5. NƏTİCƏ VƏ TƏKLİFLƏR

2017-2022-ci illəri əhatə edən Strateji İnkişaf Planının əsas nəticəsi aşağıdakı kimidir.

| **Strateji məqsəd 1. Daxili keyfiyyət təminatını təkmilləşdirmək** | |
|---|---|
| **Hədəflər** | **Reallaşma** |
| **Hədəf 1.** Keyfiyyətli təhsilə yönələn sistemin inkişaf etdirilməsi | **İcra olunub** |
| **Hədəf 2.** Tədris keyfiyyətinin və mənimsəmə imkanlarının yüksəldilməsi | **İcra olunub** |
| **Hədəf 3.** OYU-da daha yüksək elmi dərəcəsi, biliyi, səriştəsi ilə fərqlənən alimlərin, pedaqoqların sayının baza ilinə nisbətdə 10 faiz artırılması | **İcra olunub** |
| **Hədəf 4.** “universitet-məzun”, “universitet–valideyn”, “universitet-ictimaiyyət” sistemlərini qurmaq, universitetin saytının daha dolğun və çevik olmasını təmin etmək | **Əsasən icra olunub** |
| | |
| **Strateji məqsəd 2. Tədris prosesində interaktiv, yeni və daha müasir metodlardan istifadə etmək** | |
| **Hədəf 1.** Yeni təhsil standartlarına cavab verən auditoriyaların təşkil edilməsi; | **İcra olunub** |
| **Hədəf 2.** Müəllim və tələbə heyyətinin müasir kompüter proqram-paketlərindən istifadə bacarıqlarının artırılması; | **Qismən** |
| **Hədəf 3.** İnnovativ və interaktiv təlim metodlarından istifadənin genişləndirilməsi | **Qismən** |
| **Hədəf 4.** Tədris prosesinin İKT-dən istifadə ilə qurulması, tədris materiallarının elektron daşıyıcılarda işlənməsi və tətbiqi; | **İcra olunub** |
| **Hədəf 5.** Təhsil proqramlarının beynəlxalq akkreditasiya qurumlarının tələblərinə uyğunlaşdırılması; | **Qismən** |
| **Hədəf 6.** OYU-nun elektron kitabxanasının yaradılması; | **Əsasən icra olunub** |

| | |
|---|---|
| **Hədəf 7.** Təhsil Nazirliyindən qrif almış fənn proqramlarının sayının artırılması; | **İcra olunub** |
| **Hədəf 8.** Tələbə qəbulunun sayını baza ilinə nisbətdə 2 dəfəyə yaxın genişləndirmək; | **İcra olunub** |
| **Hədəf 9.** Tədrisi təklif olunan ixtisasların sayının baza ilinə nisbətdə artırılması | **İcra olunub** |
| | |
| **Strateji məqsəd 3. Universitetin monitorinq, təhlil, qiymətləndirmə sisteminin təkmilləşdirilməsi** | |
| **Hədəf 1.**Təhsil keyfiyyətinin artırılması üçün başlıca meyarlarının müəyyən edilməsi; | **İcra olunub** |
| **Hədəf 2.**Tələbələrin imtahan-monitorinq nəticələrinin təhlili; | **İcra olunub** |
| **Hədəf 3.** Monitorinq və nəzarət mexanizminin formalaşdırılması və tətbiq edilməsi; | **İcra olunub** |
| **Hədəf 4.** Monitorinq zamanı ortaya çıxan problemlərin aradan qaldırılması məqsədilə işlərin görülməsi; | **İcra olunub** |
| **Hədəf 5.** Sistemli şəkildə Universitetdə müxtəlif istiqamətlər üzrə mütəmadi monitorinqlərin aparılması; | **İcra olunub** |
| **Hədəf 6.** Tələbələrin sosial vəziyyətlərini müəyyən edən monitorinqlərin keçirilməsi və təhlili; | **Qismən** |
| **Hədəf 7.** Professor müəllim heyyətinin reytinqinin müəyyən edilməsi meyyarlarının hazırlanması və "keyfiyyət elçiləri"nin köməyi ilə monitorinqin aparılmasını təmin etmək; | **İcra olunub** |
| **Hədəf 8.** Qiymətləndirmə sisteminin səmərəliliyini artırmaq, davamlılığını təmin etmək; | **Qismən** |
| **Hədəf 9.**Tələbə məmunluğunu əldə etmək naminə "şikayət və təkliflər" qutusu üsulundan istifadə etmək. | **Qismən** |
| | |
| **Strateji məqsəd 4. Universitetin elmi-tədqiqat işinin inkişaf etdirilməsi** | |
| **Hədəf 1.**Bir tərəfdən kafedranın elmi istiqamətləri ilə digər tərəfdən universitetlər, məktəblər və biznes subyektləri arasında sabit əməkdaşlıq əlaqələrinin formalaşdırılması; | **İcra olunub** |
| **Hədəf 2.** "Scopus" bazasında çapedilən məqalələrin illik sayının baza ilinə nisbətdə ən azı 2 dəfə artırılması; | **İcra olunub** |
| **Hədəf 3.** "Scopus" bazasındakı istinad indeksinin baza ilinə nisbətdə ən azı 10 dəfə artırılması; | **İcra olunub** |
| **Hədəf 4.** "Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri" jurnalının elmi bazalara daxil edilməsini təşkil etmək; | **Qismən** |
| **Hədəf 5.** "Scopus" bazasına daxil olan beynəlxalq elmi konfranslarda OYU-nun adından məqalələrin mövcud olmasını təmin etmək; | **İcra olunub** |
| **Hədəf 6.** Universitetin elmi-tədqiqat strategiyasının | **İcra olunub** |

| | |
|---|---|
| formalaşdırılması; | |
| **Hədəf 7.** Elmi-tədqiqat işlərinin nəticələrinin tədrisdə, magistr və doktorluq işlərində tətbiq edilməsi; | **Əsasən icra olunub** |
| **Hədəf 8.** Əqli mülkiyyətin qorunmasına yönəlmiş anti-plagiat sisteminin qurulması. | **Qismən** |
| | |
| **Strateji məqsəd 5. Universitetin beynəlxalq əlaqələrini genişləndirmək** | |
| **Hədəf 1.** Xaricdə fəaliyyət göstərən universitetlərlə yeni əlaqələrin qurulması; | **İcra olunub** |
| **Hədəf 2.** Universitetin müəllim və tələbələrinin beynəlxalq mübadilə proqramlarına cəlb edilməsini genişləndirmək | **Əsasən icra olunub** |
| **Hədəf 3.** Xarici təşkilatlarla əməkdaşlıq edərək, təhsil və elm sahəsindəki proqramlarda, layihələrdə, konfranslarda, vebinarlarda, debatlarda OYU-nun əməkdaşlarının iştirakını təşkil etmək; | **Əsasən icra olunub** |
| **Hədəf 4.**Əcnəbi tələbələrlə iş keyfiyyətinin daha da təkmilləşdirilməsi və qəbul sayının baza ilinə nisbətdə ən azı 50 faiz artırılması; | **İcra olunub** |
| **Hədəf 5.** Tərəfdaş olduğumuz beynəlxalq səviyyəli qrant layihələrinin sayının artırılması; | **Qismən** |
| **Hədəf 6.** Beynəlmiləlləşmə siyasətinin formalaşdırılması. | **İcra olunub** |

Qeyd olunmalıdır ki, müəyyən hədəflərin qismən reallaşmasını səciyyələndirən başlıca amil məhz Covid-19 pandemiyasının formalaşdırdığı texniki və institutsional çətinliklər olmuşdur. Bu hədəflərin tam reallaşdırılması üçün növbəti illəri əhatə edən Strateji İnkişaf Planında sözügedən hədəflərə yer verilməlidir.